**MAYIL B. ƏSGƏROV***

# SÖZÜN YARANMA VƏ MƏNİMSƏNİLMƏ MEXANİZMİNİN LİNQVO-PSİXOLOJİ ŞƏRHİ

**XÜLASƏ**

Bu məqalədə sözün yaranma və mənimsənilmə mexanizmi ənənəvi dilçilik və ya klassik psixolinqvistik nəzəriyyələr bazasında deyil, koqnitiv dilçiliyin ən son nəzəriyyələrindən biri olan "Linqvo-psixoloji vəhdət nəzəriyyəsi" baxımından izah və şərh edilir. Qeyd edilir ki, söz dərk edilmiş gerçəklik vahidi ilə bağlı infiormasiya vermək ehtiyacını ödəmək məqsədi ilə sinktual (düşünərək) dərketmə nəticəsində yaranır. Sinktual dərketmə həmişə ümumi dərketmə prosesinin ən azı ikinci aktı kimi çıxış edir. Sinktual dərketməyə hazırlıq mərhələsində ad veriləcək gerçəklik vahidi ilə bağlı informasiya xatırlanaraq əsas yaddaşdan operativ yaddaşa gətirilir və mətn formasına transformasiya edilir.

Sinktual dərketmənin *birinci fazasında* gerçəklik vahidinə ad verilir və bu ad çox vaxt həmin gerçəklik vahidinin mahiyyətinə uyğun olur, bəzi hallarda isə təsadüfi mahiyyət daşıyır. *İkinci fazada* gerçəklik vahidinin adı və bu adın yadda qalmasını təmin edən ikinci sıra intellekt obrazı həmin gerçəklik vahidinin iki elementdən ibarət olan natamam koduna daxil olur və kodu dörd elemetdən ibarət olan tam koda çevirir. Bundan sonra həmin gerçəklik vahidi ilə bağlı bütün təffəkkür fəaliyyətləri tam kod vasitəsi ilə reallaşır.

**Açar sözlər:** *gerçəklik, vahid, element, intellekt, obraz, kod*

Sözün istər yaranması, istərsə də mənimsənilib dərk edilməsi ilə bağlı bu günə qədər çoxsaylı tədqiqatlar aparılmış, fərqli fikir və mülahizələr irəli sürülmüşdür. Bu tədqiqatların demək olar ki, hamısı ənənəvi dilçiliyin norma və prinsiplərinə əsaslanmış, dilin linqvo-psixoloji fenomen olduğu sanki tamamilə unudulmuşdur.

Klassik psixolinqvistik tədqiqatlarda isə nitq, söyləm və diskursdan kiçik dil struktur vahidlərinin tədqiqinə, ümumiyyətlə, yer verilməmişdir. Psixolinqvistikanın ən müasir istiqamətləri və ya qanadları olan nitq fəaliyyəti nəzəriyyəsində, eləcə də konneksionist və koqnitiv dilçilikdə söz, forma səviyyəli dil struktur vahidlərinin hərtərəfli tədqiqi diqqətdən kənarda qalmışdır. Koqnitiv dilçilikdə söz, forma səviyyəli dil struktur vahidlərinin uşaqlar tərəfindən mənimsənilməsi mexanizmi tədqiq olunsa da [Solso: 2011, s.245-260], sözün yaranması və yetkin yaşlı insanlar tərəfindən mənimsənilməsi mexanizmi izah edilməmişdir.

Psixolinqvistikanın aparıcı nümayəndələrinin fikrincə, "psixolinqvistik tədqiqatların əsas məqsədi nitqin yaranma və mənimsənilmə mexanizmini psixoloji proses olaraq nəzərdən keçirməkdir, onu əmələ gətirən vahidlərin öyrənilməsi isə psixolinqvistikanın maraq dairəsindən kənardır" [Leontyev: 1974, s.34-53].

Müasir Rusiya psixolinqvistikasının mənəvi atası hesab olunan E.F.Tarasov belə tədqiqatlar üçün linqvistik əsasların qəbuledilməz olduğunu iddia edərək yazır: "Eksperimental şəkildə aparılan psixolinqvistik tədqiqatların əsasında heç bir linqvistik

* AMEA Nəsimi ad. Dilçilik İnstitutu, filologiya elmləri doktoru, professor, *mayil62@yandex.com*

təsəvvür dayana bilməz" [Tarasov: 1987, s.136]. Onun fikrincə, "Psixolinqvistik araşdırma aparan tədqiqatçılara "Sizin işinizin əsasında hansı linqvistik nəzəriyyə dayanır?" - deyə sual vermək belə, qanunauyğun sayılmamalıdır" [Tarasov: 1987, s.135]. Psixolinqvistika öz tədqiqat obyekti elan etdiyi nitqin yaranma və mənimsənilmə mexanizmini şərh edərkən yalnız psixoloji məsələlərə toxunur. Linqvistik məsələləri isə, ümumiyyətlə, şərh etmir və ya şərh edə bilmir. Bu çatışmazlığı pərdələmək üçün onun ən tanınmış nümayəndələri "...nitq fəaliyyəti prosesinin analizinə linqvistik mövqedən yox, sırf psixoloji mövqedən yanaşırıq" [Tarasov: 1987, s.97] kimi açıqlamalar vermək məcburiyyətində qalırlar.

Bu kimi fikir və mülahizələr psixoloji məsələlərlə yanaşı, linqvistik məsələləri də izah etməyə qadir olan yeni nəzəri bazanın yaradılmasını bir zəruriyyətə çevirir. Nitq söyləmi və diskursla yanaşı, istənilən səviyyədən olan dil struktur vahidinin, o cümlədən də söz və formanın yaranma və mənimsənilmə mexanizmini həm psixoloji, həm də linqvistik cəhətdən şərh etməyə qadir olan nəzəriyyə məhz linqvo-psixoloji vəhdət nəzəriyyəsidir.

Struktur baxımdan söz iki boşluq arasındakı hərflər zənciri və ya iki fasilə arasındakı səslər silsiləsi olaraq qəbul edilir. Biz bu araşdırma çərçivəsində sözün yaranma və mənimsənilmə mexanizmini linqvo-psixoloji cəhətdən şərh etməyi nəzərdə tuturuq. Verilən şərhlərin lazım olan tərzdə anlaşıla bilməsi üçün, bizcə, linqvo-psixoloji vəhdət (LPV) nəzəriyyəsinin əsas müddəalarını qısaca təkrar etməyə və xatırlatmağa ehtiyac vardır.İstinad etdiyimiz LPV nəzəriyyəsi indiyə qədər mövcud olan psixolinqvistik nəzəriyyələrin müsbət cəhətlərindən faydalanmaq, səhvlərini düzəldib, çatışmazlıqlarını aradan qaldırmaq nəticəsində yaranmışdır. Minimal vahid, reallaşma mexanizmi, ilkin əsaslar, tədqiqat obyekti və üsulları baxımından isə LPV nəzəriyyəsi bu günə qədər mövcud olan bütün psixolinqvistik nəzəriyyələrdən əsaslı şəkildə fərqlənir.

LPV nəzəriyyəsinin dərketmə və təfəkkür prosesləri ilə bağlı ***psixoloji əsasını*** aşağıdakı kimi şərh etmək mümkündür.

Gerçək aləm ayrı-ayrı vahidlərdən təşkil olunmuşdur. Nə bütövlükdə gerçək aləmi, nə də onun vahidlərini bir anda və axıracan dərk etmək mümkün deyil. Gerçək və obyektiv aləmin dərki deyərkən, məhz onu əmələ gətirən vahidlərin dərk olunması nəzərdə tutulur. Gerçəklik vahidlərinin dərk olunması deyəndə isə, həmin vahidlərin ən üzdə olan əlamət və xüsusiyyətlərinin mənimsənilməsi nəzərdə tutulur.

Ayaq üstünə bərkidilmiş lövhə masanın dərk olunmasını təmin edirsə, həmin bu əlaməti masanın ən üzdə olan və "dərk olunan minimal vahid"i hesab etmək olar. Masa ilə bağlı yaddaşımızda mövcud olan ən ümumi əlamət də elə məhz budur.

Masanın 1, 2, 3, 4, 5, 6 və s. ayaqlı olması, böyük və ya kiçik olması, metaldan, şüşədən, ağacdan, yaxud plastikdən olması, yazı, mətbəx, ofis, bağ üçün olması heç bir əhəmiyyət kəsb etmir. Hər hansı bir masa ən qeyri-adi və ya fərqli xüsusiyyətlərə malik olsa belə, o bizim yaddaşımıza, hər şeydən əvvəl, ən üzdə olan xüsusiyyət və əlaməti əsasında, yəni *ayaq üstünə bərkidilmiş lövhə* kimi qeyd olunur.

    

Gerçəklik vahidlərinə aid olan əsas əlamət və xüsusiyyətlər LPV nəzəriyyəsi çərçivəsində ***gerçəklik elementi*** adlandırılır. Dərk edilən gerçəklik vahidləri həm *kitab, masa* kimi maddi əşya və varlıqlar, həm *sevinc, qorxu* kimi abstrakt anlayışlar, həm də *div, əcinnə, damdabaca* kimi, ümumiyyətlə, həyatda mövcud olmayan xəyali obrazlar ola bilər. Bu baxımdan *gerçəklik elementi* bütün növlərdən olan gerçəklik vahidlərinin ən üzdə olan əlamət və xüsusiyyətləridir [daha ətraflı bax: Əsgərov: 2011, s. 84-92].

Masa ilə bağlı danışarkən qavramanı, dərk etməni asanlaşdırmaq üçün onun şəkillərindən, yəni vizual obrazından istifadə edirik. Amma nəzərə almaq lazımdır ki, *sevinc, kədər, qorxu, div, əcinnə, damdabaca* kimi gerçəklik vahidlərinin vizual obrazı, ümumiyyətlə, mövcud deyil. Bütün gerçəklik vahidləri vizual obraz əsasında deyil, insanın özü tərəfindən və öz ehtiyaclarına uyğun şəkildə yaratdığı abstrakt təsəvvürlər əsasında dərk edilir. Yəni gerçəklik elementi müəyyən olunarkən *qələm* ilə bağlı "yazı aləti", *təyyarə* ilə bağlı "uçuş vasitəsi", *papaq* ilə bağlı "baş geyimi" kimi abstrakt təsəvvürlər yaradılır. Bu abstrakt təsəvvürlər bəzən gerçəklik vahidinin mahiyyətinə, forma və funksiyasına uyğun olur, bəzən isə tamamilə təsadüfi mahiyyət daşıyır. Gerçəklik vahidlərinin dərk edilməsi və ya yadda saxlanılması deyərkən, məhz bu abstrakt təsəvvürlərin əsas yaddaşa qeyd edilməsi nəzərdə tutulur. Bir daha qeyd edək ki, gerçəklik elementi heç bir halda gerçəklik vahidinin vizual obrazı deyil. Həmin gerçəklik vahidi ilə bağlı insanın özü tərəfindən yaradılan və onun (insanın) maddi, yaxud mənəvi ehtiyacını ödəyən əlamət və ya xüsusiyyəti əks etdirən abstrakt təsəvvürdür.

Gerçəklik vahidi və ya onun gerçəklik elementi öz-özünə yadda qala bilməz. Onun yadda qalmasını ən kiçik dərketmə və təfəkkür vahidləri təmin edir ki, LPV nəzəriyyəsi çərçivəsində onlara ***intellekt obrazı*** deyilir [bax.Əsgərov: 2011, s.97-98].

İnsan hiss orqanları vasitəsilə obyektiv aləm və onun vahidləri ilə vizual (görməklə), vokal (eşitməklə), friktual (toxunmaqla), tastual (dadmaqla), attaral (qoxulamaqla) təmasda olur. Bu təmas nəticəsində hər bir gerçəklik elementinə ekvivalent olan intellekt obrazı yaranır və həmin gerçəklik elementi ilə birlikdə iki elementli kod şəklində əsas yaddaşa qeyd olunur. İkielementli intellekt kodu aşağıdakı tərkib hissələrindən ibarətdir:

1) ***gerçəklik elementi;***

2) gerçəklik elementinin yadda qalmasını təmin edən ***intellekt obrazı***.

Bütün dərketmə və təfəkkür prosesləri intellekt obrazları və ya ümumilikdə intellekt kodları vasitəsilə həyata keçir. Dərketmə və təfəkkür prosesləri ardıcıl şəkildə cərəyan edən aktlardan, hər bir akt isə sıra ardıcıllığı heç bir zaman pozulmayan 4 fazadan ibarətdir.

***Birinci faza*** – gerçəklik vahidi ilə təmas və onunla bağlı informasiyanın operativ yaddaşa qəbulu fazasıdır. Bu fazada gerçəklik vahidinin ən üzdə olan və ya insan ehtiyacına uyğun gələn xüsusiyyəti, yəni *gerçəklik elementi* müəyyən olunur.

***İkinci faza*** - gerçəklik vahidi ilə bağlı informasiyanın yaddaşa qeyd olunması fazasıdır. Bu fazada gerçəklik elementinin yadda qalmasını təmin edən intellekt obrazı yaranır və gerçəklik elementi ilə birləşərək iki elementli kod şəklində əsas yaddaşa qeyd edilir. Bununla da gerçəklik vahidi yadda saxlanılmış olur.

Göründüyü kimi, ilk iki faza dərketmə və təfəkkür proseslərinin ***birinci yarımaktıdır.*** Əslində, bu yarımaktda dərketmə və ya ilkin mənimsəmə prosesi başa çatır, tamamlanır. Növbəti iki faza isə dərketmə və təfəkkür prosesinin ***ikinci yarımaktıdır*** və bu yarımaktda təfəkkür prosesi reallaşır.

***Üçüncü faza*** - gerçəklik vahidi ilə bağlı informasiyanın xatırlanması fazasıdır. Bu fazada gerçəklik vahidinə ekvivalent olan intellekt obrazı və ya kodu əsas yaddaşdakı milyonlarla bənzər obraz və kodlar arasından seçilərək operativ yaddaşa gətirilir. Onunla eyni kodda olan gerçəklik elementi ilkin qəbul olunduğu formada və ya sonrakı dərketmə aktının tələbinə uyğun olan başqa bir formada operativ yaddaşda tam şəkildə açılır.

***Dördüncü faza*** – gerçəklik vahidi ilə bağlı informasiyadan praktik istifadə fazasıdır. Bu fazada gerçəklik vahidinə aid informasiyadan əməli fəaliyyətdə və ya əməli fəaliyyətə istiqamət verən əqli fəaliyyətdə və o cümlədən də nitqdə istifadə olunur [daha ətraflı bax: Əsgərov: 2011, s. 98-110].

LPV nəzəriyyəsinin dərketmə və təfəkkür prosesləri ilə bağlı psixoloji əsasını S+K+F=DT (stimul + kod + fəaliyyət = dərketmə və təfəkkür) sxemi təşkil edir.

***Sözün yaranma mexanizmi.***

Sözün yaranmasının iki əsas şərti vardır: 1) ad veriləcək gerçəklik vahidi dərk edilmiş olmalıdır; 2) həmin gerçəklik vahidi ilə bağlı informasiya vermək və ya almaq ehtiyacı yaranmalıdır.

*Dərk edilməyən gerçəklik vahidinə ad vermək mümkün deyil.* Belə ki LPV nəzəriyyəsində qeyd edildiyi kimi, əgər hər hansı bir gerçəklik vahidi ilə təmas baş veribsə, deməli, həmin gerçəklik vahidi dərk edilmiş, yəni həmin gerçəklik vahidi ilə bağlı iki elementli intellekt kodu yaranaraq əsas yaddaşa qeyd olunmuşdur. Bu baxımdan dərk edilməyən gerçəklik vahidi deyərkən indiyə qədər təmasda olmadığımız, yəni varlığından xəbərimiz olmayan bir gerçəklik vahidi nəzərdə tutulur. Təbii ki, varlığından xəbərimiz olmayan gerçəklik vahidinə ad verməyimiz, ümumiyyətlə, mümkün deyil.

*Haqqında danışılmayan gerçəklik vahidinə ad verilmir.* Gerçəklik vahidinə o zaman ad verilir ki, onunla bağlı informasiya vermək və ya almaq ehtiyacı yaransın. Əgər belə bir ehtiyac olmasa, həmin gerçəklik vahidinə ad vermək heç bir əhəmiyyət kəsb etmir. Üzümüzdə olan əsas orqan və əzaların adı vardır, məsələn: ağız, burun, qulaq, göz, alın, yanaq, dodaq və s. Amma üst dodağımızda burun pərinin altında

olan kanala oxşar əzanın aktiv ünsiyyət dilində heç bir adı yoxdur. Çünki onunla bağlı kimə isə informasiya vermək ehtiyacımız olmamışdır. Bu gün biz ona hər hansı bir ad verə bilərik. Amma həmin adı ifadə edən söz dildə qalmayacaqdır. Çünki ehtiyac olmadığı halda, kiminsə şəxsi istəyi ilə yaranan söz heç bir iz qoymadan yox olmağa məhkumdur.

İnsan digər canlılardan onunla fərqlənir ki, sadəcə obyektiv aləmdə var olan və hiss orqanlarına təsir göstərən gerçəklik vahidlərini mənimsəmir. İnsan öz şüuru vasitəsilə təbiətdə hazır şəkildə mövcud olmayan yeni gerçəklik vahidləri yaratmağa və onları da dərk etməyə qadirdir. Belə gerçəklik vahidlərini yaradarkən insan əvvəl dərk etmiş olduğu gerçəklik elementlərindən bir mənbə kimi, özünün düşüncə, təfəkkür imkan və qabiliyyətlərindən isə bir vasitə kimi istifadə edir. Bu cür dərketməyə LPV nəzəriyyəsi çərçivəsində düşünərək dərketmə və ya ***sinktual dərketmə*** deyilir. Sinktual dərketmə – hazırlıq mərhələsi kimi qəbul edilən ilkin mənimsəmə aktı və ya prosesindən sonra cərəyan edən ikinci aktdır. Adından da göründüyü kimi, sinktual dərketmə (to think) düşünmə yolu ilə baş verən əqli yaradıcılıq prosesidir.

İnsan dərk etmiş olduğu gerçəklik vahidi ilə bağlı informasiya vermək və ya almaq ehtiyacı duyanda sinktual dərketmə yolu ilə həmin gerçəklik vahidinə ad verir. LPV nəzəriyyəsi çərçivəsində gerçəklik vahidinə ad vermək *sözün və ya formanın yaranması* prosesi olaraq qəbul edilir.

Belə fərz edək ki, ad verməli olduğumuz gerçəklik vahidi bu ana qədər bizə məlum deyil. Bizə bir tərəvəz göstərilir və onunla bağlı əlavə məlumat da verilir: *bu tərəvəz qanda olan şəkərin yüksəlməsinin qarşısını alır, xərçəng xəstəliyinə qarşı da effektiv təsir göstərir.*

Belə hesab edək ki, ölkəmizdə satışa çıxarılması nəzərdə tutulan bu tərəvəzə Azərbaycan dilində ad vermək və onu potensial müştərilərə tanıtmaq tələb olunur.

Bu tərəvəzi gördüyümüz an beynimizdə həmin gerçəklik vahidinə ekvivalent olan və aşağıda qeyd edilən iki tərkib hissədən ibarət yeni bir intellekt kodu yaranacaqdır: 1) gerçəklik vahidinin ən üzdə olan xüsusiyyətlərini əks etdirən gerçəklik elementi (GE); 2) gerçəklik elementinin yadda qalmasını təmin edən intellekt obrazı (İO). İki tərkib hissədən ibarət olan belə kodlar LPV nəzəriyyəsi çərçivəsində natamam kod və ya intellekt kodunun nüvəsi adlanır. Adı olmayan və ya bilinməyən bütün gerçəklik vahidləri yaddaşımıza məhz bu tipli, yəni iki tərkib hissədən ibarət olan kodlar vasitəsilə qeyd edilir.

GE+İO =$K_{nt}$

Həmin kodu vizual olaraq belə də göstərmək mümkündür:

| | |
|---|---|
|  | **İO$_1$** |

Leksik səviyyəli söz yaratmanın ümumi prinsiplərinə uyğun olaraq istənilən gerçəklik vahidinə ad verərkən, bir qayda olaraq, onun funksional rolu, zahiri görünüşü, eyni zamanda müxtəlif dünya dillərində ona nə ad verildiyi və bu zaman hansı meyarlardan çıxış edildiyi nəzərə alınır.

***Zahiri görünüşü baxımından***: bu tərəvəz balaca kələmə, küknar ağacının yetişərək partlamış qozasına və ya çatlamış, ağzı açılmış nara bənzəyir.

***Funksional rolu baxımından***: bu bir tərəvəz növüdür, qanda olan şəkərin səviyyəsini stabil saxlayır, xərçəng xəstəliyinə qarşı effektiv təsir göstərir.

***Dünya dillərində verilən ad baxımından***:

- alman, ingilis, fransız, rus və bir çox Avropa dillərində bu tərəvəzə *artischocke, artichoke, artichaut, артишоки* deyilir. Bu adın qədim latın dilində işlənmiş *arti* (sənət) və *schocke* (heyrətamiz, qeyri-adi) sözlərinin birləşməsindən əmələ gəldiyi, təxminən *heyrətamiz sənət* mənası ifadə etdiyi ehtimal oluna bilər. Belə ki bu tərəvəzin həm zahiri görünüşü bir sənət əsərinə bənzəyir, həm də insan sağlamlığına qeyri-adi, möcüzəvi faydaları vardır.

- italyan, ispan, portuqal dillərində bu tərəvəzə - *carciofo, alcachofa, alcachofras* deyilir. Bu adın qədim yunan dilində işlənmiş αλκα (sərxoş) və κουράς (üstü qırxılmış baş) sözlərinin birləşməsindən əmələ gəldiyi və təxminən *üstü qırxılmış sərxoş baş* mənası ifadə etdiyi ehtimal oluna bilər. Belə ki bu tərəvəzin zahiri görünüşü həqiqətən də üstü qırxılmış başa bənzəyir, digər tərəfdən, onun suyu insanda yüngül sərxoşluq yaratmaq qabiliyyətinə malikdir.

- latın və Malta dillərində bu tərəvəzə - *cactus və qaqoċċ* deyilir. Bu sözlərin xüsusi izahata ehtiyacı yoxdur.

- fars dilində - کنگر فرنگی – firəngi kəngər, yəni Fransadan (Avropadan) gətirilmiş kəngər deyilir. Bu adın da izahına ehtiyac duymuruq.

- irland dilində bu tərəvəzə - *bhliosán gréine* – yəni günəşvari kəngər deyilir. Həqiqətən də, tərəvəzin görünüşündə günəşə bir bənzərlik, bir oxşarlıq hiss olunur.

- türk, rumın və bir sıra başqa şərqi Avropa və şərq dillərində bu tərəvəzə *enginar və anghinare* deyilir. Bu adın fars mənşəli *əng* (ağız, daxil, iç) və *nar* sözlərinin birləşməsindən əmələ gəldiyi və təxminən *ağzı açılmış nar*, yaxud da *narın ağzı* mənasını ifadə etdiyi ehtimal oluna bilər. Belə ki əvvəldə də qeyd etdiyimiz kimi, bu tərəvəzin zahiri görünüşündə partlamış, ağzı açılmış nara bir bənzərlik, bir oxşarlıq vardır.

Əgər belə fərz etsək ki, bu tərəvəzin bu günə qədər Azərbaycan dilində adı yoxdur, o halda yuxarıda qeyd edilən analogiyalardan hər hansı biri əsasında ona müəyyən bir ad vermək olardı. Yəni bu tərəvəzə *heyrətamiz sənət, üstü qırxılmış sərxoş baş, fransız kəngəri, günəş şəkilli kəngər, narın ağzı* mənalarından hansısa birinə uyğun gələn bir ad vermək olardı. Eləcə də bu tərəvəzin digər cəhətlərini, həmçinin Azərbaycan dilində hal-hazırda mövcud olan söz yaradıcılığı ənənələrini də nəzərə almaqla ona tamamilə fərqli, tamamilə orijinal bir ad, məsələn, *qırxıqbaş* və ya *narağzı* adlarından birini vermək mümkün idi. Amma Azərbaycan dilində bu tərəvəz

üçün yeni ad verilməsinə ehtiyac duyulmamışdır. Onun türk dilindəki adının (*engi-nar*) Azərbaycan dilinin orfoqrafik və orfoepik normalarına uyğunlaşdırılması yolu ilə qəbul edilməsi daha məqsədəuyğun hesab edilmiş və bu tərəvəzə Azərbaycan dilində ***ənginar*** adı verilmişdir.

Əgər indiyə qədər bu tərəvəzin adı sizə məlum deyildisə, deməli, sizin beyninizdə bu gerçəklik vahidi ilə bağlı sadəcə 2 elementdən ibarət olan natamam intellekt kodu vardı.

$$\text{GE}_1 + \text{İO}_1 = \text{K}_{nt}$$

Həmin tərəvəzin adını öyrəndiyiniz anda onun intellekt kodu aşağıdakı tərkib hissələrindən ibarət olan 4 elementli intellekt koduna çevrilir:

$$\mathbf{GE_1 + İO_1} + \text{GE}_2 + \text{İO}_2 = \text{K}_t$$

Həmin kodu vizual olaraq belə də göstərmək mümkündür:

| | |
|---|---|
|  | **Ənginar** |
| **$\text{İO}_1$** | **$\text{İO}_2$** |

Belə kodlar LPV nəzəriyyəsi çərçivəsində ***tam kod*** adlanır və onu əmələ gətirən tərkib hissələri bunlardır:

1) birinci sıra gerçəklik elementi - $\text{GE}_1$, yəni gerçəklik vahidi ilə bağlı əsas yaddaşımızda olan ilkin informasiya,

2) gerçəklik elementinin yadda qalmasını təmin edən 1-ci sıra intellekt obrazı - $\text{İO}_1$,

3) gerçəklik vahidinin adı və ya ikinci sıra gerçəklik elementi - $\text{GE}_2$,

4) gerçəklik vahidinin adının və ya ikinci sıra gerçəklik elementinin yadda qalmasını təmin edən 2-ci sıra intellekt obrazı - $\text{İO}_2$.

Bu kodu əmələ gətirən **$\text{GE}_1$ və $\text{İO}_1$** intellekt kodunun nüvəsidir. Nüvə olmadan (**$\text{GE}_1$+$\text{İO}_1$**) heç bir intellekt kodu yarana bilməz və əsas yaddaşa qeyd oluna bilməz. Elə bu səbəbdən də onların adının yanında <u>*birinci sıra*</u> (yəni ən vacib) ifadəsi işlənir: *birinci sıra gerçəklik elementi, birinci sıra intellekt obrazı*. Bir daha qeyd edək ki, adı bilinməyən gerçəklik vahidi sadəcə nüvədən ibarət olan natamam intellekt koduna malikdir.

Tam koddakı $\text{GE}_2$ və $\text{İO}_2$ isə gerçəklik vahidinin adı və adın yadda qalmasını tə-

min edən intellekt obrazıdır, yəni $GE_2$+$İO_2$ gerçəklik vahidinə aid kodun dominant dil elementləridir. Dominant dil elementi yalnız özü və adı dərk edilmiş gerçəklik vahidlərinin tam kodunda ola bilər. Məhz bu səbəbdən onların adının yanında *ikinci sıra* ifadəsi işlənir: *ikinci sıra gerçəklik elementi, ikinci sıra intellekt obrazı*. Həm adı, həm özü dərk edilmiş olan gerçəklik vahidləri ilə bağlı istənilən dərketmə və təfəkkür proseslərində tam kod, yəni 4 elementli intellekt kodu iştirak edir.

Sinktual dərketmə nəticəsində yaranan sözlər və ya söz formaları üç qrupa ayrılır: *leksik, leksik-qrammatik və qrammatik* formalar.

***Leksik forma:*** 1) müstəqil birinci sıra gerçəklik elementinə, 2) gerçəklik elementinin yadda qalmasını təmin edən birinci sıra intellekt obrazına, 3) müstəqil sözlə ifadə olunan ada (ikinci sıra gerçəklik elementinə), 4) adın yadda qalmasını təmin edən ikinci sıra intellekt obrazına malik olur.

***Leksik-qrammatik forma:*** 1) əmələ gəldiyi forma ilə ortaq olan birinci sıra gerçəklik elementinə (məsələn, *yazmaq, yazışmaq, yazılmaq, yazdırmaq; bizim, bizimki* sözlərində olduğu kimi, 2) gerçəklik elementinin yadda qalmasını təmin edən birinci sıra intellekt obrazına, 3) şəkilçi formasında ada (ikinci sıra gerçəklik elementinə), 4) adın yadda qalmasını təmin edən ikinci sıra intellekt obrazına malik olur.

***Qrammatik forma:*** 1) abstrakt təsəvvür mahiyyəti daşıyan birinci sıra gerçəklik elementinə, 2) gerçəklik elementinin yadda qalmasını təmin edən birinci sıra intellekt obrazına, 3) şəkilçi formasında ada (ikinci sıra gerçəklik elementinə), 4) adın yadda qalmasını təmin edən ikinci sıra intellekt obrazına malik olur.

Söz və ya formalar sinktual dərketmə nəticəsində yaranır və yarandığı andan etibarən onlar da müstəqil gerçəklik elementi mahiyyəti daşıyır. Bu tədqiqat çərçivəsində sözlər 2-ci sıra gerçəklik elementi ($GE_2$) adlandırılır [daha ətraflı bax: Əsgərov: 2015, s.96-112]. Birinci sıra gerçəklik elementləri kimi, sözlər də dərketmə aktının birinci yarımaktında mənimsənilərək dərk olunur. Sözlər bir qayda olaraq vizual (görərək) və ya vokal (eşidərək) dərketmə nəticəsində mənimsənilir [daha ətraflı bax: Əsgərov: 2015, s.113-122].

***Sözün mənimsənilmə mexanizmi.***

İnsan hansısa sözü ilk dəfə eşidəndə bəzi hallarda həmin sözün aid olduğu gerçəklik vahidi ona məlum olmaya bilir. Bu zaman onun beynində bu sözü və onun ikinci sıra intellekt obrazını haraya, əsas yaddaşdakı hansı koda daxil etməklə bağlı tərəddüdlər yaranır. Buna görə də dinləyən şəxsin operativ yaddaşında ikinci sıra gerçəklik elementi və intellekt obrazı bəlli olmayan *müvəqqəti bir kod* əmələ gəlir. Əgər sözlə təmasdan sonra keçən qısa vaxt ərzində bu söz müvafiq kodun nüvəsi ilə birləşib tam kod yaratmazsa, o zaman həmin söz operativ yaddaşdan silinməyə və ya unudulmağa məhkumdur. Başqa sözlə desək, operativ yaddaşa qeyd edilən sözün və ya formanın mənası mənimsənilməzsə, müəyyən müddətdən sonra həmin forma da unudulur. Qeyd edilən bu qayda həm ana dilində, həm də əcnəbi dillərdə olan sözlərin mənimsənilib dərk edilməsinə aiddir. İstər ana dilində, istərsə də əcnəbi dildə olan sözlər bu qaydalara uyğun şəkildə mənimsənilir və dərk olunur.

Belə fərz edək ki, ana dilimiz olan Azərbaycan dilinə aid yeni bir sözü, məsələn, ***əmgək*** sözünü ilk dəfə oxuyuruq və ya eşidirik, yəni ikinci sıra gerçəklik elementi ($GE_2$) mahiyyəti daşıyan bu sözlə vizual və vokal təmasda oluruq. Həmin anda bu sözün yadda qalmasını təmin edən ikinci sıra intellekt obrazı ($İO_2$) yaranır və bu sözün *müvəqqəti kodu* ($GE_2$+$İO_2$) operativ yaddaşımıza qeyd olunur.

Daha sonra bu sözün aid olduğu gerçəklik vahidi haqqında bizə məlumat verilir: *əmgək* – yeni doğulan körpələrin başının ön tərəfində, alın və təpə sümüklərinin birləşən hissəsində olan boşluqdur. Uşaqlarda ön və arxa əmgək olur. Ön əmgək doğumda açıq, arxa əmgək isə, demək olar ki, bağlı olmalıdır. Ön əmgəyin normal bağlanma müddəti 3-18 aydır.

Verilən bu məlumat gerçəklik vahidinin tanıdılmasına, başqa sözlə desək, onun gerçəklik elementinin müəyyən olunmasına xidmət edir. Bu izahat nəticəsində *əmgək* adlı gerçəklik vahidi ilə bağlı belə bir abstrakt təsəvvür yaranır: *əmgək – yeni doğulan körpələrin başının ön tərəfindəki sümüklər arasında olan boşluqdur*. Bu abstrakt təsəvvür birinci sıra gerçəklik elementi ($GE_1$) kimi qəbul edilir, ona ekvivalent olan birinci sıra intellekt obrazı ($İO_1$) yaranır. Nəticədə gerçəklik vahidinin intellekt kodunun nüvəsi ($GE_1$+$İO_1$) yaranmış olur. Bu nüvə həmin gerçəklik vahidinin adını əks etdirən dominant dil elementi ($GE_2$+$İO_2$) ilə birləşərək tam kod şəklində əsas yaddaşa qeyd edilir:

$$GE_1+İO_1 + GE_2+İO_2 = K_t$$

Ana dilinə aid olan sözlərin mənimsəlimәsi və dərk olunması bu qaydada baş verir. İndi də əcnəbi dilə aid olan sözlərin mənimsənilmə və dərk olunma mexanizmini nəzərdən keçirək.

Belə fərz edək ki, türk dilində *somun* kimi yazılan və tələffüz edilən bir söz olduğu haqqında məlumat alırıq. Yəni ikinci sıra gerçəklik elementi ($GE_2$) mahiyyəti daşıyan ***somun*** sözü ilə vizual və vokal təmasda oluruq. Daha sonra bu sözün aid olduğu əşya, yaxud da onun şəkli bizə göstərilir. Eyni zamanda bu sözün Azərbaycan dilində qarşılığının *qayka* olduğu da deyilir.

Alınan məlumatlar əsasında dinləyən şəxsin beynində bu gerçəklik vahidi ilə bağlı mövcud olan dörd elementli intellekt koduna daha iki element əlavə olunur və bu kod altı elementli intellekt koduna çevrilir:

$$\mathbf{GE_1 + İO_1} + \boldsymbol{GE_2 + İO_2} + GE_3 + İO_3 = K_{gen}$$

Həmin kodu vizual olaraq belə də göstərmək mümkündür:

| | | |
|---|---|---|
|  | **QAYKA** | **SOMUN** |
| **$İO_1$** | **$İO_2$** | **$İO_3$** |

Bu kodu əmələ gətirən **$GE_1$ və $\text{İ}O_1$** intellekt kodunun nüvəsi, $GE_2$ və $\text{İ}O_2$ dominant dil elementi, yəni həmin gerçəklik vahidinin ana dilindəki adı, $GE_3$ və $\text{İ}O_3$ isə daha sonra öyrənilən ikinci bir dildəki adıdır.

Göründüyü kimi, sözün aid olduğu əşyanı və ya onun şəklini göstərmək, əslində, dinləyən şəxsin beynində həmin sözün birinci sıra intellekt obrazı ilə əlaqə yaratmaqdır. Doğma dildə bu sözün qarşılığını vermək isə əcnəbi sözlə dominant dil elementi arasında əlaqə yaratmaqdır. Əslində, bu da vasitəli üsuldan istifadə etməklə həmin sözün birinci sıra intellekt obrazını dinləyən şəxsə tanıtmaqdır. Hər iki halda dinləyən şəxs eşitdiyi *somun* sözünü dərk edir və ya onun mənasını başa düşür.

Deməli, *sözü başa düşmək və ya formanı dərk etmək onun aid olduğu birinci sıra intellekt obrazını yaratmaq, yaxud da onunla əlaqəni təmin etməkdir.*

Əgər biz bir gerçəklik vahidinin adını ana dilindən başqa daha üç dildə biliriksə, o halda həmin gerçəklik vahidinin bizim yaddaşımızda mövcud olan kodu 10 tərkib hissədən, yaxud 5 cütdən ibarət olacaqdır. Belə kodlara LPV nəzəriyyəsi çərçivəsində genişlənmiş kod deyilir. Genişlənmiş kod daxilində müxtəlif dillərə aid olan sözlər bizim bu dilləri bilmə səviyyəmizə uyğun şəkildə sıralanır.

$$\mathbf{GE_1 + \text{İ}O_1} + \boldsymbol{GE_2 + \text{İ}O_2} + GE_3 + \text{İ}O_3 + GE_4 + \text{İ}O_4 + GE_5 + \text{İ}O_5 + GE_6 + \text{İ}O_6 = K_{gen}$$

Həmin kodu vizual olaraq belə göstərmək mümkündür:

| | | | | |
|---|---|---|---|---|
|  | **KİTAB** | **КНИГА** | **BUCH** | **BOOK** |
| **$\text{İ}O_1$** | **$\text{İ}O_2$** | **$\text{İ}O_3$** | **$\text{İ}O_4$** | **$\text{İ}O_5$** |

Bu kod əsasında belə deyə bilərik ki, bizim dominant dilimiz, yəni ana dilimiz Azərbaycan dili, ən yaxşı bildiyimiz ikinci dil rus dili, bir qədər zəif bildiyimiz dil alman dili, ən zəif bildiyimiz dil isə ingilis dilidir.

Əgər intellekt kodunu qeyd etdiyimiz şəxs hansısa bir dialektin daşıyıcısı olarsa, o zaman həmin koddakı dominant dil elementi (***$GE_2 + \text{İ}O_2$***) bu dialektə məxsus bir söz ola bilər. Bu halda gerçəklik vahidinin ikinci dildəki adı ($GE_3$+$\text{İ}O_3$) mövqeyində həmin gerçəklik vahidinin ədəbi dildəki adı dayanır. Bu gerçəklik vahidinin digər dillərdəki adı isə, aid olduğu dilin bilinmə səviyyəsinə uyğun olaraq daha sonrakı sıralarda yer alır [daha ətraflı bax: Əsgərov, 2016, s. 244-251].

Söz və formalar haqqında danışarkən qeyd etmişdik ki, həm özü, həm də adı dərk edilmiş olan gerçəklik vahidləri ilə bağlı bütün psixoloji proseslər 4 tərkib hissədən ibarət olan və ya 4 elementli intellekt kodları vasitəsilə reallaşır. Bu prosesdə

ikinci sıra intellekt obrazları və onlara ekvivalent olan sözlər də kod daxilində aktiv vəziyyətdə olur. Belə ki həmin kod əsas yaddaşdan operativ yaddaşa gələrkən birinci sıra gerçəklik elementi ilə birlikdə ikinci sıra gerçəklik elementi də, yəni söz də tam şəkildə açılır. Bu səbəbdən belə bir yanlış təsəvvür yaranır ki, düşünmə və təfəkkür proseslərində söz və nitq aktiv şəkildə iştirak edir. Əslində isə, aktivləşmiş kodlardakı sözlər düşünmə və təfəkkür prosesini sadəcə müşayiət edir.

Sözün düşünmə və təfəkkür prosesini müşayiət etməsi, klassik psixolinqvistik tədqiqatlarda yanlışlıqla "daxili nitq" kimi izah olunur. Amma nəzərə alınmır ki, adı olmayan gerçəklik vahidləri ilə bağlı düşünmə prosesində söz nəinki iştirak etmir, ümumiyyətlə, sözün belə bir potensial imkanı da yoxdur. Çünki adı olmayan və ya bilinməyən gerçəklik vahidinin intellekt kodu sadəcə nüvədən ($GE_1$ + $İO_1$) ibarət olur. Bu kod daxilində dominant dil elementi ($GE_2$ + $İO_2$), ümumiyyətlə, olmur.

Məlum olduğu kimi, "daxili nitq" anlayışını elmə L.S.Vıqotski gətirmişdir və o, daxili nitqdən danışarkən yazırdı: "Daxili nitqə sözsüz nitq də demək olar" [Vıqotsk: 2000, s. 357]. Sözsüz nitqin necə qurulması cavabsız bir sualdır və psixoloqlar üçün bağışlana bilən bir xətadır. Nitqin nə olduğunu və necə qurulduğunu dəqiqliklə bilən, bununla belə, daxili nitqi xüsusi bir nitq növü kimi təqdim edən linqvistləri isə anlamaq mümkün deyil.

Dil və dərketmə qarşı-qarşıya qoyulmuş güzgülərə bənzər iki eyni tipli sistemdir. Dərk olunan şeylər dil sistemində, dil sistemində var olan şeylərsə dərketmə sistemində öz əksini tapır. Amma onlar arasına tam bərabərlik işarəsi qoymaq olmaz. Belə ki dil sistemində olan hər şey istisnasız olaraq dərketmə sistemində öz əksini tapır. Amma dərketmə sistemində olan o şeylər dil sistemində öz əksini tapır ki, onlarla bağlı danışmaq, informasiya vermək və ya almaq ehtiyacı yaransın. Dərk edilən, amma haqqında danışmaq ehtiyacı yaranmayan gerçəklik vahidləri dil sistemində öz əksini tapmır.

Dərketmə sistemindən kənarda olan dil ölü dil və ya bilinməyən dildir. Dərketmə sistemindən kənarda olan dil struktur vahidi ağ kağız üzərindəki mənasız əyri xətlərdən və ya efir boşluğundakı maqnit dalğaları selindən başqa bir şey deyil. Dil özünün aktiv sistem mahiyyətini məhz dərketmə sistemi və təfəkkür prosesləri ilə yenidən birləşdikdə qazanır.

## ƏDƏBİYYAT

1. Əsgərov M.B. Linqvopsixologiya və ya dilin psixologiyası. Bakı, "Elm və təhsil", 2011, 318 s.

2. Əsgərov M.B. Linqvo-psixoloji vəhdət nəzəriyyəsi. Bakı, "Elm və təhsil", 2015, 192 s.

3.Əsgərov M.B. Sərbəst və normalaşdırılmış nitqin linqvo-psixoloji fərqləri. AMEA-nın Xəbərləri, Humanitar elmlər seriyası N 1, Bakı 2016, s. 244-251.

4.Выготский Л.С. Психология. Москва, “Апрель Пресс, ЭКСМО-ПРЕСС”, 2000. 1008 с.

5.Леоньтев А.А. Эвристический принцип в восприятии, порождении и усвоении речи // Вопросы психологии 1974, № 5, с. 34-53.

6. Солсо Р. Когнитивная психология. 6-е изд, СПб, Питер 2011, 589 с.

7.Тарасов Е.Ф. Тенденции развития психолингвистики. Москва, “Наука”, 1987, 168 с.

**Mayil B. ASKEROV**

**LINGUO-PSYCHOLOGICAL INTERPRETATION OF THE MECHANISM OF FORMATION AND ASSIMILATION OF THE WORD**

**SUMMARY**

In this article, the mechanism of formation and assimilation of word is explained and interpreted not on the basis of traditional linguistics or classical psycholinguistic theories, but in terms of the “Theory of Linguo-Psychological unity”, one of the latest theories of cognitive linguistics. It is noted that the word forms as a result of thinktuelle (by thinking) comprehension in order to meet the need to provide information about the comprehended unity of reality. Thinktuelle comprehension always acts as at least the second act of the general comprehension process. In preparation for thinktuelle comprehension, by recalling the information about the unit of reality to be named is brought from the main memory to the operative memory and transforms into a textual form.

In the first phase of thinktuelle comprehension, a unit of reality is named, and this name often corresponds to the essence of that unit of reality, and in some cases conveys a random character. In the second phase, the name of the unit of reality and the of the second rank image of intelligence that ensures that the name is remembered enter the incomplete code of that unit of reality, which consists of two elements, and converts the code into a complete (full) code of four elements. After that, all thinking activities related to that unit of reality are carried out through the full code.

**Key words**: *reality, unit, element, intellect, image, code*

**Майыл Б. АСКЕРОВ**

**ЛИНГВОПСИХОЛОГИЧЕСКАЯ ИНТЕРПРЕТАЦИЯ МЕХАНИЗМА ОБРАЗОВАНИЯ И УСВОЕНИЯ СЛОВА**

**РЕЗЮМЕ**

В статье механизм образования и усвоения слова объясняется не с позиций традиционной лингвистики или классической психолингвистики, а на базе теории лингвопсихологического единства – одной из последних теорий в когнитивной лингвистике. Подчеркивается, что слово образуется в результате синктуального (вдумчивого) познания с целью обеспечения потребности передачи информации, связанной с осознанной единицей действительности.

Синктуальное познание всегда является как минимум вторым актом общего процесса познания. На этапе подготовки к синктуальному познанию информация о единице действительности, которой следует дать название, переносится из основной памяти в оперативную, и преобразуется в текстовую форму. На первой фазе синктуального познания именуется единица действительности, и это название часто соответствует сущности этой единицы действитель-

ности, а в ряде случаев является случайным. На второй фазе название единицы действительности и второй мысленный образ, обеспечивающий запоминание этого названия, входят в неполный код данной единицы действительности, состоящий из двух элементов, и преобразуют его в полный код, состоящий из четырех элементов. После вся мыслительная деятельность, связанная с этой единицей действительности, осуществляется посредством полного кода.

**Ключевые слова**: *действительность, единица, элемент, интеллект, образ, код*